№ 26 (1021) 28 iyun - 4 iyul 2018-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet
Qiyməti razılaşma yolu ilə
Qəzet 1999-cu ildən çıxır

# Peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

**Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqindən:**

Keçən ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etmişik. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş ən önəmli qərarlardan biri Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərar idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra respublika süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir.

Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa edilmişdir. Ancaq bildiyimiz kimi, müstəqilliyimizin ilk iki ili ölkəmiz üçün çox ağır keçmişdir, faciəvi illər idi. Sanki tarix XX əsrin sonunda təkrarlanırdı. 1991-1993-cü illərdə Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı. Ölkə idarəolunmaz vəziyyətdə idi. 1992-ci ildə Xalq Cəbhəsi və Müsavat tərəfindən dövlət çevrilişi vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycanda vəziyyət kritik həddə çatmışdı. Bundan istifadə edən Ermənistan xalqımıza, gənc dövlətimizə qarşı işğalçılıq siyasəti aparırdı. Bu siyasət nəticəsində torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Deməli olar ki, müstəqilliyimizin ilk iki ili Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması nı sual altına qoymuşdu. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi.

Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişlər. Ona görə, Ulu Öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutur. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmışdır, xarici sərmayənin cəlb olunması təmin edilmişdir, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır.

2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Qeyd etdiyim kimi, Ermənistan müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən mənfi proseslərdən, o cümlədən Xalq Cəbhəsi-Müsavat tərəfindən başlanmış vətəndaş müharibəsindən istifadə edərək torpaqlarımızı zəbt etmişdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq hüquqa görə də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Son illər ərzində dünyanın aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı bir çox qərar və qətnamələr qəbul etmişlər. O cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir və orada da göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr hələ də qüvvədədir və öz qüvvəsini itirməyib.

Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, Xocalı soyqırımı törədilmişdir. Bu gün dünyanın 10-dan çox ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb.

Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır. İqtisadi potensialına görə Azərbaycan bu gün özünü çox rahat hiss edir. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir.

2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaq. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur.

Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün bizim hərbi hissələrimizdə 20 mindən çox mülki vətəndaş çalışır. Əvvəllər bu işlərdə əsgərlər işləyirdilər. Biz əsgərləri məişət işlərindən azad etdik. Eyni zamanda, mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri yaradılmışdır.

Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir.

Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.

Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd edirdim ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var.

**(davamı 3-cü səhifədə)**



# "Səsvermənin nəticələri xalqın əsl lideri kimi Sizin şəxsinizə olan böyük inam və etimadın aşkar təzahürüdür"



**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

Seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edir və Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Səsvermənin nəticələri xalqın əsl lideri kimi Sizin şəxsinizə olan böyük inam və etimadın aşkar təzahürü, qardaş Türkiyənin hərtərəfli inkişafı və çiçəklənməsi yolunda genişmiqyaslı fəaliyyətinizə və xidmətlərinizə verilən yüksək qiymətdir.

Azərbaycan ilə Türkiyəni dərin tarixi kökləri, ortaq milli-mənəvi dəyərləri ilə bir-birinə sıx bağlı olan, xalqlarımızın iradəsinə uyğun olaraq sarsılmaz dostluq və qardaşlıq münasibətləri birləşdirir. Bu möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz bu gün müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə yüksəlmişdir.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sayəsində birgə həyata keçirdiyimiz layihələr regionun inkişafında, Avropa ilə Asiya arasında mühüm enerji, kommunikasiya dəhlizinin yaradılmasında böyük rol oynayır. Birgə gerçəkləşdirdiyimiz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, bu yaxınlarda açılışını etdiyimiz TANAP layihəsi uğurlu əməkdaşlığımızın parlaq nümunələridir.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərimizin gerçəkləşməsində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Əziz Qardaşım, bir daha Sizə ən səmimi təbriklərimi yetirir, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyə xalqının yüksəlişi naminə əzmkar və fədakar işinizdə uğurlar diləyirəm.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 iyun 2018-ci il**

# Türkiyə ədalətin və inkişafın davamlığına səs verdi

Türkiyədə növbədənkənar prezident və 27-ci çağırış parlament seçkilərinə dair səsvermə başa çatmışdır. Nəticədə, Rəcəb Tayyib Ərdoğan növbəti dəfə prezident seçilmişdir. Onun sədri olduğu Ədalət və İnkişaf Partiyası da (AKP) seçicilərin yüksək etimadını qazanmışdır.

Ali Seçki Komissiyasından verilən məlumata görə, ölkə üzrə 59354840 seçicinin təxminən 88 faizi səsvermədə iştirak etmişdir. Seçicilərin 52,55 faizi Rəcəb Tayyib Ərdoğana etimad göstərmişdir.

Onun əsas rəqibi, Cümhuriyyət Xalq Partiyasının (CXP) namizədi Məhərrəm İncə 31 faiz səs toplaya bilmişdir. Xalqların Demokratik Partiyasının (XDP) namizədi Salahəddin Dəmirtaş 8,2 faiz, İyi Partiyanın namizədi Meral Akşener 7,4 faiz, Səadət Partiyasının namizədi Temel Karamollaoğlu 0,9 faiz, Vətən Partiyasının sədri Doğu Perincek isə 0,2 faiz səs qazanmışlar.

Parlament seçkilərinə səsvermədə Ədalət və İnkişaf Partiyası ilə Millətçi Hərəkat Partiyasının birləşdiyi Cümhur İttifaqı birinci olmuşdur (53,6 faiz). Beləliklə, Türkiyə Böyük Millət Partiyasındakı 600 mandatın



293-nü Ədalət və İnkişaf Partiyası qazanmışdır. Digər mandatların 146-sı Cümhuriyyət Xalq Partiyasının (22,7 faiz), 67-si Xalqların Demokratik Partiyasının (11,6 faiz), 49-u Millətçi Hərəkat Partiyasının (11,1 faiz), 45-i isə İyi Partiyanın (10,01 faiz) payına düşmüşdür.

Rəcəb Tayyib Ərdoğan möhtəşəm qələbə münasibətilə sədri olduğu AKP-nin Ankaradakı Mərkəzi Qərargahında "balkon konuşması" ilə partiyadaşlarına və tərəfdaşlarına müraciət etmişdir. Prezident paytaxtda vətəndaşlar tərəfindən böyük sevgi və coşqu ilə qarşılanmışdır.

Seçkiləri azad, ədalətli və şəffaf təşkil olunduğunu deyən dövlət başçısı bildirmişdir ki, ölkədəki seçki fəallığı Türkiyə xalqının öz hüquqlarına və müstəqilliyinə verdiyi dəyərdir. Qələbəyə görə partiyadaşlarına, eləcə də MHP sədri Dövlət Baxçalı başda olmaqla bütün partiya mənsublarına minnətdarlıq etmiş və qarşıda duran vəzifələrdən danışmış Ərdoğan vurğulamışdır ki, xalq yüksək seçki fəallığı ilə bütün dünyaya demokratiya dərsi vermişdir.

Türkiyə lideri qələbəsi ilə bağlı demişdir: "İlkin nəticələrə görə, xalqımız mənə ölkənin prezidenti rolunu, Cümhur İttifaqına isə parlament çoxluğunu etibar etmişdir. Ümidvaram ki, öz uğursuzluğunu ört-basdır etmək üçün heç kəs səsvermənin nəticələrini şübhə altına almayacaq. Türkiyə bütün dünyaya demokratiya dərsi verdi".

Səsvermənin nəticələri Türkiyə xalqının lideri kimi Rəcəb Tayyib Ərdoğana olan böyük inam və etimadın təzahürü, ölkənin inkişafı və çiçəklənməsi yolunda onun fəaliyyətinə və xidmətlərinə verilən yüksək qiymətdir.

Beləliklə, 81 milyonluq Türkiyə ədalətli və inkişaflı davamlığına səs verməklə yeni tarixi mərhələyə qədəm qoymuşdur. Qardaş xalqın bundan sonra da əldə edəcəyi uğurlar bütün türk dünyasının qələbəsi olacaq. İndiyədək qazanılmış nailiyyətlərin davam edəcəyi isə heç kəsdə şübhə doğurmur.

# Azərbaycanla Belarus arasında münasibətlər yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.

Dövlətimizin başçısı bu yaxınlarda Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Moskvada görüşdüyünü məmnunluqla xatırladı və söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldığını dedi.

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu və tərəfdaşlıq əlaqələrinə söykəndiyini vurğulayaraq, əməkdaşlığın siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirmişdir.

Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi.

# Ölkələrimiz arasında dostluq münasibətləri daha da inkişaf edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Dövlətimizin başçısı Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Bu yaxınlarda Rusiya Federasiyasında Prezident Vladimir Putinlə görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev iki ölkənin dövlət başçıları arasında görüşlərin mütəmadi olaraq keçirildiyini qeyd etdi və bu təmasların əlaqələrimizin bütün istiqamətlərdə irəliyə aparılması baxımından önəmini vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, ikitərəfli münasibətlərimiz geniş sahələri əhatə edir, möhkəm siyasi əlaqələr mövcuddur, iqtisadi, ticarət, nəqliyyat, energetika, humanitar və digər sahələrdə yaxşı dinamika müşahidə olunur.

Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində parlamentlərarası əməkdaşlıq da böyük önəm daşıyır. Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edir və hər zaman beynəlxalq səviyyədə bir-birini qarşılıqlı surətdə dəstəkləyir. Bütün bunlar ölkələrimiz arasında etimada əsaslanan əlaqələrin yaxşı göstəricisidir.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bildirdi ki, bu seçkilərdə insanlar Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə, o cümlədən xarici siyasətə dəstək verdiklərini nümayiş etdiriblər.

Vyaçeslav Volodin vurğuladı ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlər strateji tərəfdaşlıq əlaqələrinə əsaslanır və çox yüksək səviyyədədir. Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunan Vyaçeslav Volodin bildirdi ki, bu sahədə də əlaqələrin uğurla inkişaf etməsi xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir.

O, bildirdi ki, ticarət dövriyyəsinin 30 faiz artımı bunun çox yaxşı göstəricisidir. Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri, eyni zamanda, turizm sahəsində əməkdaşlığın genişləndiyini qeyd edərək ötən il Rusiyadan Azərbaycana 850 mindən artıq turistin gəldiyini bildirdi və bu göstəricinin 18 faiz artdığını qeyd etdi.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Ölkələrimiz arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul edib.



Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmək üçün ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etdi və bunu ölkələrimiz arasında qardaşlıq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirdi. Ölkələrimizin hər zaman bir-birini dəstəklədiyini deyən dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi səbəbindən Pakistanın Ermənistanla diplomatik əlaqələr qurmamasını yüksək qiymətləndirdi və qeyd etdi ki, bu, xalqlarımız arasında qardaşlığı nümayiş etdirir və Azərbaycan xalqı bunu yüksək dəyərləndirir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Pakistan rəhbərləri ilə görüşlərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz arasında sıx siyasi əlaqələr mövcuddur və eyni zamanda, müdafiə sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Pakistanla hərbi əməkdaşlığı daha da genişləndirmək və Pakistandan daha çox hərbi texnika almaqda maraqlıdır. Ölkələrimizin birgə hərbi təlimləri də bu məqsədə xidmət edir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat Pakistan hökumətinin, xalqının və Silahlı Qüvvələrinin ən xoş arzularını Prezident İlham Əliyevə və xalqımıza çatdırdı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəyindən məmnunluq hissi keçirdiyini deyən Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat tədbirin böyük əhəmiyyət daşıdığını vurğuladı və bu münasibətlə təbriklərini çatdırdı. Xalqlarımız arasında sıx əlaqələrin mövcud olduğunu deyən Zübair Mahmud Hayat bu əlaqələrin tarixi və mədəni köklərə əsaslandığını vurğuladı.

# Səməd Seyidov yenidən AŞPA-nın vitse-prezidenti seçilib




Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov yenidən qurumun vitse-prezidenti seçilib.

Bundan başqa, Azərbaycan nümayəndə heyətinin iki yeni üzvü - Çingiz Qənizadə və Naqif Həmzəyev nümayəndə heyətinin üzvləri kimi təsdiqləniblər.

# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin hərbi qulluqçularını təltif edib

Azərbaycan Prezidenti İlham Əliyev Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif ediliblər:



**1-ci dərəcəli "Rəşadət" ordeni ilə**

**Həsənov Zakir Əsgər oğlu – general-polkovnik;**

**Sadıkov Nəcməddin Hüseyn oğlu – general-polkovnik;**

**Mustafayev Kərəm Nəriman oğlu – general-leytenant.**

# Peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir

**(əvvəli 1-ci səhifədə)**



Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir.

Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir.

Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək.

2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

**Eşq olsun Azərbaycan Ordusuna!**

**Yaşasın Azərbaycan!**

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!

“Ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir”.

İlham ƏLİYEV




# Rumıniya Xəzər qazının TANAP və TAP-la Avropaya nəqlində maraqlıdır




Cənub Qaz Dəhlizinin inkişafında Trans-Anadolu təbii qaz boru kəmərinin (TANAP) rolu mühüm əhəmiyyətə malikdir. Rumıniya isə bu kompleks layihəni və onun genişləndirilmə planını fəal dəstəkləyən ölkələrdən biridir. Bu sözləri Rumıniyanın Energetika Nazirliyinin dövlət katibinin müşaviri Korneliu Kondrea bildirib.

O əlavə edib ki, rəsmi Buxarest Azərbaycan qazının yaxın bir neçə ildə Avropaya nəqlini nəzərdə tutacaq “Şaquli dəhliz”in həyata keçirilməsində yaxından iştirak edir: “Bildiyiniz kimi, Rumıniya “Şahdəniz-2” yatağından çıxarılacaq Azərbaycan qazının nəqlini nəzərdə tutan Yunanıstan-Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya təbii qazötürücü sistemlərini birləşdirəcək “Şaquli dəhliz” kəmərini dəstəkləyir və bu işin icrasında yaxından iştirak edir. Ölkəmiz TANAP və TAP kimi qaz kəmərləri infrastrukturundan istifadə edilməklə enerji mənbələrinin şaxələndirilməsinin dəstəklənilməsində maraqlı olduğunu dəfələrlə açıqlayıb. Əlbəttə, bu işdə regionda mövcud olan qaz kəmərlərinin - Yunanıstan-Bolqarıstan İnterkonnektoru, BRUA, eləcə də Türkmənistan, Azərbaycan, Qara və Aralıq dənizlərində mövcud olan resursların potensialları nəzərə alınmalıdır.

K.Kondrea deyib ki, Rumıniya Avropa İttifaqının enerji məqsədlərinə nail olunması üçün həyata keçirdiyi milli və regional səviyyədə “mavi yanacaq” təchizatının təhlükəsizliyini təmin edəcək strateji layihələrin icrası istiqamətində Avropa Komissiyasının səylərini fəal şəkildə dəstəkləyir”.

Nazirliyin rəsmisi qeyd edib ki, Cənub-Şərqi Avropa ölkələrinin yerləşdiyi coğrafi mövqe onlara imkan verir ki, qaz hasil edən ölkələrlə “mavi yanacağ”ı idxal edəcək Mərkəzi və Qərbi Avropa bazarları arasında tranzit rolunu oynasınlar: “Fikrimcə, “mavi yanacağ”ın satışındakı gələcək dəyişikliklər və regional bazarların inteqrasiyasını nəzərə almaqla, Yunanıstan, Bolqarıstan və ya Rumıniya uzun müddətdə Avropanın enerji mərkəzinə çevrilə bilər. Lakin hazırkı vəziyyətdə bu hədəfə ən yaxın ölkə Türkiyədir”.

# 2023-cü ilədək qlobal LNG ixracı 30 faiz artacaq

Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) “Gas 2018” illik hesabatında deyilir.

Bildirilir ki, Çin ən böyük təbii qaz idxalçısı olacaq: “Çin gələn il LNG alışlarının təsiri ilə dünyanın ən böyük təbii qaz idxalçısı olacaq. Çinin təbii qaz tələbatı 2017-2023-cü illər arasında təxminən 60 faiz artaraq 376 milyard kubmetr səviyyəsinə yüksələcək. Çinin LNG idxalı isə 2023-cü ilə qədər ötənilki 51 milyard kubmetrdən 93 milyard kubmetrə qədər artacaq”.

IEA-ya görə, ABŞ ikinci böyük ixracatçı olacaq. 2017-ci ildə 391 milyard kubmetr təbii qaz idxal edilib və bunun 55 faizi Çin, Yaponiya və Koreya Respublikası tərəfindən reallaşdırılıb.

2023-cü ildə LNG idxalının həcmi 505 milyard kubmetrə çatacaq və bunun da 48 faizi Çin, Koreya Respublikası və Yaponiya tərəfindən həyata keçiriləcək.



# Qida Təhlükəsizliyi Agentliyi "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlayacaq




Prezident İlham Əliyevin Fərmanına əsasən, Qida Təhlükəsizliyi Agentliyi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlayacaq. Qurum fəaliyyəti çərçivəsində qida təhlükəsizliyi sertifikatının, müvafiq olaraq fitosanitar, baytarlıq sertifikatlarının verilməsi xidmətlərini göstərəcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin mətbuat xidmətindən bildirilib ki, sahibkarlar ixrac etdiyi məhsullar üçün bu sertifikatları da "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən vahid məkan prinsipi əsasında əldə edə biləcəklər.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə qeyd edib ki, Qida Təhlükəsizliyi Agentliyinin iyulun 1-dən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlaması sahibkarlar üçün yeni imkanların yaradılmasıdır: "Mərkəz tərkibində ixracatçıların əsas üstünlüyü ixrac prosesini özündə ehtiva edən ixrac blokuna məxsus digər dövlət qurumlarının da sertifikat və icazələrini almağın mümkün olmasıdır. Başqa sözlə, sahibkarlar "Bir Pəncərə" prinsipi əsasında malın mənşə sertifikatının alınması, gömrük bəyannaməsinin doldurulması, həmçinin özəl sektora malik standartların asanlıqla əldə olunması üstünlüklərindən yararlanacaqlar".

Diqqətə çatdırılıb ki, Qida Təhlükəsizliyi Agentliyi "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində dövlət başçısının "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına dəyişikliklər əsasında fəaliyyətə başlayacaq.

# İsveçrənin 3 şirkəti ilə fındıq ixracına dair ilkin razılaşmalar əldə olunub



İsveçrə şirkətlərinin nümayəndələri Azərbaycana səfər edəcək və yerli fındıq istehsalçıları ilə görüşəcəklər.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, İsveçrəyə təşkil olunan ixrac missiyası çərçivəsində Azərbaycanın fındıq istehsalı ilə məşğul olan şirkətləri ilə İsveçrənin aparıcı şirkətləri arasında görüşlər keçirilib. Bern şəhərində keçirilən görüşlərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar barədə məlumat verilib, Azərbaycan və İsveçrə şirkətləri arasında əməkdaşlığın genişləndirilməsinə, ixracın artırılmasına dair müzakirələr aparılıb.

İsveçrənin "GN-company", "Varistor" və "Delica" şirkətləri ilə aparılan müzakirələr zamanı fındıq ixracına dair ilkin razılaşmalar əldə olunub. Bu məqsədlə İsveçrə şirkətlərinin nümayəndələrinin Azərbaycana səfəri və yerli fındıq istehsalçıları ilə görüşlərinin təşkili barədə razılığa gəlinib.

İxrac missiyası İsveçrə şirkətləri ilə görüşlərini davam etdirərək, aparıcı fındıq tədarükü və satışı müəssisələrində də olublar.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**«Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün»**

## «Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri»

# Böyük Vətən müharibəsi Azərbaycan kinosunda

120 illik tarixə malik olan Azərbaycan kinosu şanlı bir yol keçib. Bu yol heç də həmişə açıq, asan olmayıb. Mən bu yazıda milli kinomuzun şanlı tarixindən bəhs etməyəcəm. Bu mövzuda çox yazılıb, mütəxəssislər də sözlərini deyib. Mən sadəcə milli kinomuzda tariximizin qanlı-qadalı müharibə illərinin əks etdirilməsi barədə düşüncələrimi bölüşmək istərdim.

1941-ci iliyunun 22-də faşist Almaniyası ilə Sovet İttifaqı arasında müharibənin başlanması ilə Azərbaycan kino işçiləri öz işlərini dövrün ağır tələbləri əsasında yenidən qurmalı oldular. 1945-ci ilin mayına qədər ölkəmiz (keçmiş SSRİ) cəbhədən gələn xəbərləri dinləyərək tək bir məqsəd – qələbə üçün yaşayırdı. Partiya və hökumət xalqın mənəvi qüvvəsini qarşıda duran vəzifələrə nail olmaq üçün cəmləşdirirdi. Bütün ölkədə olduğu kimi, Azərbaycanda da filmlərin çəkiliş planları yenidən nəzərdən keçirilirdi. Əsas mövzu da dövrə uyğun idi: Vətənə sevgi...

Qısa müddətdə Azərbaycanda kinematoqrafiya hərbi vətənpərvərlik mövzusunda tam səfərbər oldu. Bakı kinostudiyasında şair və yazıçılardan (S.Vurğun, M.Hüseyn, studiyanın direktoru Ş.Abbasov və rejissor A.Beknazarov) ibarət komissiya təşkil olundu. Komissiyanın vəzifəsi müharibə mövzusunda qısametrajlı bədii və sənədli filmlərin, kinojurnalların yaradılmasına rəhbərlik etmək idi. Bu məqsədlə yazıçılardan S.Rəhman, İ.Qasımov, M.Cəlal, Ə.Sadıq, M.Rəfili, rejissorlardan M.Mikayılov, R.Təhmasib, A.Quliyev, M.Dadaşov, N.Bədəlov və başqalarına ssenarilərin yazılması və filmlərin çəkilişləri tapşırıldı. Beləliklə, kinostudiya müharibənin reallıqlarını, qəhrəman oğullarımızın şücaətini əks etdirən filmlərin istehsalına başladı.

Böyük Vətən müharibəsi dövründə ölkədə vəziyyətin ağır olmasına baxmayaraq, kinostudiyada ilk ekran əsərləri - M.F.Axundovun həyat və yaradıcılığından bəhs edən"Səbuhi" (1942), qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr edilmiş "Vətən oğlu" (1941) və "Bəxtiyar" (1942) kinonovellaları, Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədovun döyüşdə göstərdiyi hünərdən danışan "Sovet pəhləvanı" (1942), qısametrajlı"Sovqat" filmi (1942), dənizçilərin igidliklərini əks etdirən "Sualtı qayıq "T-9" (1943) bədii filmi, xalqlar dostluğundan danışan "Bir ailə" kinoalmanaxı(1943), "Vətən uğrunda" (1943),"416-cı" (1942), "Bakı döyüşür" (1944), "General Həzi Aslanov" (1945) və s. sənədli filmlər çəkildi.

**Kino işçiləri ön cəbhədə**

Kino işçilərinin böyük bir hissəsi əllərində silah müxtəlif cəbhə bölgələrində faşistlərə qarşı qəhrəmanlıqla vuruşurdular. Ssenarist Ə.Qulubəyov 416-cı Taqanroq diviziyasında rabitəçi idi. Kinomexanik V.Lozov göstərdiyi qəhrəmanlıqlara görə 1943-cü ildə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdü.Kinostudiyanın direktoru Z.Səfərov, rejissorlardan T.Tağızadə, Ə.İbrahimov, Ş.Mahmudbəyov və başqalarıordu sıralarında döyüşürdülər.

Rusiyalı kinoşünas N.Zorkaya yazır: "Böyük Vətən müharibəsində 250 kinooperator iştirak etmiş, onlardan hər beşincisi qəhrəmancasına həlak olmuşdur". Onların arasında Azərbaycandan gedənlər də (A.Z.Ələkbərov, K.Həsənov, M.Mustafayev, C.Məmmədov, X. Babayev, L.Koretski, Ə.Ələkbərov, Ə.Həsənov, M.Dadaşov, V.Yeremeyev, T.Axundov, Ə.Hüseynov, S.Bədəlov və başqaları) az deyildi. Onlar ön cəbhədə düşmənlə üzüzə tarixin amansız dəhşətlərini anbaan kinolentin yaddaşına köçürürdülər.Bəzən bu kinoxronikalar onların həyatı, qanı bahasına başa gəlirdi...

Müharibə illərində çəkilən filmlər, ilk növbədə təbliğat idi. Bu filmlər "yüksək sənət" xatirinə deyil, xalqın mübarizlik ruhunu yüksəltmək üçün yaranırdı.

Sənədli kino ustalarının ilk işi "Ordenli Azərbaycan" kinojurnalının yeni nömrələri oldu. Bu xüsusi buraxılış (1941) azərbaycanlı gənclərin könüllü olaraq cəbhəyə getməsinə həsr olunmuşdu.

O illərin film və tamaşalarında gerçəklik maksimum dərəcədə idi. Bu gerçəklik bir amala - düşmənə qarşı son nəfəsə qədər döyüşməyə, fədakarlığa, arxa cəbhədə isə yorulmadan işləməyə, vətəndaşların şüurunda vətənpərvərlik hissinin tərbiyə edilməsinə xidmət edirdi. Müharibə acı, lakin unikal material mənbəyi idi; yaradılan filmlərdə hərb dövründə insanların qarşılıqlı münasibətləri, qəhrəmanların taleləri, arzu və istəkləri gerçəkliyin ekranda əksi idi. Bu filmlərdə düşmənə nifrət get-gedə müharibəyə və onun acı fəsadlarına: ağrıya, dərdə və dağıntılara nifrətlə əvəz olunurdu.

**Müharibə mövzusu müharibədən sonra**

Kinoşünas alim Aydın Kazımzadə yazır: "Müharibə qurtarandan sonra sənətə əyinlərindən hərbi formanı hələ çıxarmamış, dəhşətli hadisələrin iştirakçısı olmuş, vaxtından əvvəl yaşlanmış adamlar gəliblər. Onlar ekran vasitəsilə nəsilləri, həlak olmuş yoldaşları adından müharibəyə öz münasibətlərini, nifrətlərini bildirmiş, öz sözlərini demişlər".

Böyük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan kinosunda yeni mərhələ başladı. Rejissor T.Tağızadə müxtəlif illərdə yaradıcılığında müharibə mövzusuna müraciət edərək, "Əmək və qızılgül", "Mən ki gözəl deyildim" kino əsərlərini yaratdı. Onun 1958-ci ildə Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadənin döyüş yolundan bəhs edən "Uzaq sahillərdə" filmi bu yaradıcılıq işlərinin zirvəsi idi.

Bu film təkcə Azərbaycanın deyil, bütün sovet kinosunun nailiyyətləri sırasındadır. Dinamik, gərgin hadisələr, dəqiq aktyor seçimi, yüksək səviyyəli operator və rejissor işi sayəsində bu film böyük şöhrət qazandı. Rejissor bu filmdə müharibənin vəhşi təbiətini bütün çılpaqlığı ilə təsvir etmiş, başımıza gələn müsibətləri, ağır itkiləri, insan ruhunun yenilməzliyini tam gerçəkliyi ilə əks etdirə bilmişdi.

Elə həmin ildə rejissor Ə.İbrahimov "Onun böyük ürəyi" filmini çəkir. Bu filmdə adamların yüksək mənəviyyatından, ön cəbhədə alman faşizminə qarşı qəhrəmanlıqla vuruşub şücaət göstərmələrindən bəhs edilir.

Rejissor işi Ə.Atakişiyevə aid olan "Bizim küçə" (1961) filmində isə müharibə dövründə itkin düşmüş bir qızın taleyindən söhbət açılır.

**Çağırsa ellər, gedərəm davaya…**

1969-cu ildə "Şərikli çörək" və "Bizim Cəbiş müəllim" filmləri ekrana çıxdı. "Bizim Cəbiş müəllim" kinopovesti müharibə illərində hərbi texnikanın hərəkətə gətirilməsində neft Bakısının həlledici rolundan bəhs edən tutarlı ekran əsəridir. 70-ci illərdə bu film bütün keçmiş İttifaq ekranlarını dolaşdı və yaradıcılarına böyük uğur gətirdi.

Bu filmdə uşaqdan-böyüyə hamı müharibənin qələbə ilə bitməsini gözləyir, hamı əlində olan son tikəsini belə cəbhədəki döyüşçülərə göndərməyə hazırdır. Makedonun dilindən deyilən "Çağırsa ellər, gedərəm davaya" meyxanası indi də uşaqlar arasında sevilə-sevilə səslənir...

Filmdəki səhnələrin birində Cəbiş məllim qonşusu Nəcəfovla ön cəbhədə baş verən hadisələrdən danışır. Nəcəfov obrazının dili ilə rusların xoşuna gəlməyən, onların nəzarətdə saxladığı faktlar üzə çıxarılmışdır. Həmin fakt ondan ibarət idi ki, Böyük Vətən müharibəsində hər 1000 zirehli texnikanın 700-nü yanacaqla Azərbaycan təmin edib.

Azərbaycan kinosunda seçilən rejissorlardan olan Ş.Mahmudbəyovun yaratdığı filmlər arasında müharibə mövzulu "Şərikli çörək", "Dörd bazar günü", "Skripkanın sərgüzəşti", "Torpaq. Dəniz. Od. Səma", "Tənha narın nağılı" kimi kino əsərləri xüsusi yer tutur. Arxa cəbhədə uşaqların həyatından bəhs edən "Şərikli çörək"filmi 1969-cu ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb.

Rejissor E.Quliyevin "Səmt küləyi" (1973) filmi Azərbaycan kinosu tarixində xarici (Çexoslovakiya) studiya ilə müştərək çəkilmiş ilk filmdir. A.Babayevin "Sevinc buxtası" filmi 1978-ci ildə, "Birisi gün gecə yarısı" filmi 1986-cı ildə Azərbaycan SSR Dövlət mükafatı alıb.1976-cı ildə İ.Hüseynovun "Tütək səsi" və "Saz" povestlərinin motivləri əsasında R.Ocaqov "Tütək səsi" adlı maraqlı bir sənət nümunəsi yaradıb.

O illərdə insanların əlində sanki mümkün olmayan iş yox idi. Cəbhə üçün, döyüş üçün nə lazımdırsa, qeyd-şərtsiz yerinə yetirilməli idi. Özü də qorxu ilə, təhdidlə yox, daxili istəklə...

Rejissor R.İsmayılovun çəkdiyi "Sizi dünyalar qədər sevirdim" (1985) qəhrəmanlıq kinodramı C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaradıcılıq uğurudur. Film iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun həyat və döyüş yolunun müəyyən səhifələrini canlandırır. Bu filmi həyəcan və qürur hissi keçirmədən seyr etmək olmur."Uzaq sahillərdə" filmindən sonra bu ikinci filmdir ki, ön cəbhədə gedən döyüşləri tamaşaçıya təqdim edir.

Böyük Vətən müharibəsi haqqında filmlər ikiqat dəyərlidir. Belə ki, hər birində həmin dövrün gerçəklikləri, çətin şəraitə düşmüş insanların əhval-ruhiyyələri, ümidləri və arzuları, nəhayət, tariximiz öz əksini tapır. Bu filmlər yerli kinematoqrafın qiymətli xəzinəsidir. Qəhrəman keçmişimizin ekranda canlanan obrazları tamaşaçını hadisələr burulğanına çəkərək, onu bu keçmişin bir hissəsinə çevirir.



**Unutqanlıq yolverilməzdir**

Yuxarıda söhbət açdığımız bu filmlərdən hər biri bizləri o müdhiş illərə çəkib aparır. Bir dərdli, bir sərli, bir amallı insan talelərinin qovuşduğu məkana. Bu ümmana baş vurduqca, xalqımızın hünər və qeyrət etalonuna çevrilən fədakarlığını və şücaətini gördükcə qürur duyursan ki, faşizm kimi ölüm kabusunun yer üzündən silinib atılmasında Azərbaycan xalqının misilsiz payı və zəhməti vardır.

Böyük Vətən müharibəsi haqqında filmlər bütün ölkəni, hər bir kəsi əhatə edən ağır zəhmətin, o illərin hadisələrinin təhlili və nəticəsi idi.

Böyük fəxrlə söyləmək olar ki, Bakı nefti olmasaydı, təpədən dırnağa qədər silahlanmış Hitler Almaniyasını məğlub etmək mümkün olmayacaqdı. Sovet ideoloji sistemi bunu etiraf etsə də, əməldə başqa cür davranmışdır. Belə olmasaydı, qəhrəman şəhərlər sırasında buna ən çox mənəvi haqqı olan Bakımızın da adı olardı. Bütün bunlar tarixin bizə verdiyi ibrət dərsləridir. Tarixdə unutqanlıq olmaz. Çünki bu sonrakı itkilərə və acılara yol açır. Odur ki, Böyük Vətən müharibəsində Azərbaycan xalqının şanlı və şərəfli mücadilə tarixi dərindən öyrənilməli, təbliğ edilməlidir.

Bu gün biz Qarabağ müharibəsinin şahidləriyik. Ötən əsrin sonlarında milli kinomuzda durğunluq illəri yaşansa da, filmlər çəkilirdi. Qarabağda gedən müharibə və onun fəsadları kinolentlərə köçürüldü. Beləcə "Fəryad", "Ağ atlı oğlan" və s. yarandı.

"Fəryad" filmini Qarabağ müharibəsi haqqında çəkilmiş ən mükəmməl film adlandırmaq olar. 1993-cü ildə çəkilmiş bu film qəlbi vətən eşqi ilə döyünən hər bir azərbaycanlı üçün doğmadır, əzizdir. Ceyhun Mirzəyevin daxili iztirabları, düşüncələri həqiqi olduğundan film uğurlu alınıb.

Son dövrlərdə çəkilən filmlər arasında A.Abbasın eyniadlı romanı əsasında çəkilən "Dolu" filmini xüsusi qeyd etmək olar. Filmi "məğlubiyyət haqqında ən yaxşı qələbə filmi" adlandırırlar.

Hazırda milli kinomuza dövlət qayğısı yeni filmlərin çəkilişinə təkan verib. Dövlət sifarişi ilə çəkilən filmlərin sayı artır, gənc rejissorlar üçün öz potensiallarını nümayiş etdirməyə geniş imkanlar açılır. Bizim güclü ordumuz, İlham Əliyev kimi Ali Baş komandanımız var. Əminik ki, tezliklə aprel döyüşlərini də, Cocuq Mərcanlını da, Qarabağ həqiqətlərini də dünyaya çatdıracaq yeni ekran əsərləri yaranacaqdır.

**Yeganə MƏMMƏDOVA**

# "BAKU ELECTRONİCS" MMC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| | Azərbaycan manatı ilə | |
|---|---|---|
| | **31.12.2017** | **31.12.2016** |
| **A K T İ V L Ə R** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 3 306 097 | 3 298 576 |
| **Qeyri-maddi aktivlər** | 22 832 | 25 369 |
| **Daşınmaz əmlaka investisiyalar** | 6 656 800 | 5 377 438 |
| **İştirak payı metodu üzrə investisiyalar** | 200 | 200 |
| | ***9 985 929*** | ***8 701 583*** |
| ***Qısamüddətli aktivlər*** | | |
| **Ehtiyatlar** | 12 648 998 | 11 710 322 |
| **Qısamüddətli debitor borcları** | 28 426 441 | 15 689 923 |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | 408 183 | 1 718 972 |
| **Sair qısamüddətli maliyyə aktivləri** | 14 533 | 3 330 |
| **Sair qısamüddətli aktivlər** | 8 406 | 12 284 |
| | ***41 506 561*** | ***29 134 831*** |
| **CƏMİ AKTİVLƏR** | **51 492 490** | **37 836 414** |
| **K A P İ T A L** | | |
| **Ödənilmiş nominal (Nizamnamə) kapital** | 14 896 300 | 11 136 300 |
| **Kapital ehtiyatları** | 156 577 | 156 577 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | (4 724 752) | (6 862 482) |
| **CƏMİ KAPİTAL** | **10 328 125** | **4 430 395** |
| **Ö H D Ə L İ K L Ə R** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | 28 629 079 | 27 765 329 |
| **Uzunmüddətli borclar** | - | - |
| | ***28 629 079*** | ***27 765 329*** |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | - | - |
| **Qısamüddətli kreditor borcları** | 11 535 286 | 5 632 845 |
| **Sair qısamüddətli öhdəliklər** | 1 000 000 | 7 845 |
| | ***12 535 286*** | ***5 640 690*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **41 164 365** | **33 406 019** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **51 492 490** | **37 836 414** |

| | Azərbaycan manatı ilə | |
|---|---|---|
| | **31.12.2017** | **31.12.2016** |
| Əsas əməliyyat gəliri | 60 222 264 | 50 437 745 |
| Satışın maya dəyəri | (56 142 804) | (48 465 720) |
| **Ümumi mənfəət (zərər)** | **4 079 460** | **1 972 025** |
| Sair əməliyyat gəlirləri | 104 026 | 119 009 |
| İnzibati xərclər | (48 348) | (30 573) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **4 135 138** | **2 060 461** |
| Fövqəladə gəlirlər | 1 389 910 | 20 041 |
| Fövqəladə xərclər | (2 552 635) | (4 037 453) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **2 972 413** | **(1 956 951)** |
| Mənfəət vergisi | (834 683) | (1 257 601) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **2 137 730** | **(3 214 552)** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Təsisçilərin payı | **2 137 730** | **(3 214 552)** |

| | **2017-ci il** | **2016-ci il** |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət / zərər | 2 137 730 | (3 214 552) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | |
| Əsas vəsaitlərin amortizasiyası | 340 189 | 245 150 |
| QMA amortizasiyası | 2 537 | 2 819 |
| Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər / zərərlər | 1 465 | 6 655 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | |
| Ehtiyatlar üzrə artım/azalma | (938 675) | 8 812 325 |
| Əməliyyat debitor borclarında artım/azalma | (12 736 518) | 8 631 574 |
| Sair qısamüddətli aktivlər üzrə | 3 878 | (11 575) |
| Əməliyyat kteditor borclarında artım/azalma | 5 902 441 | (4 467 155) |
| Sair qısamüddətli öhdəliklər üzrə | 992 155 | 7 845 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(4 294 798)** | **10 013 086** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlər və QMA-lərin alınması | (1 628 537) | (6 719 855) |
| Törəmə müəssisələrə investisiyalar | - | 1 387 100 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(1 628 537)** | **(5 332 755)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul** | | |
| **vəsaitlərinin hərəkəti** | | |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə | (11 203) | 9 837 |
| Uzunmüddətli borclar | - | - |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 3 760 000 | 300 |
| Faiz xərcləri yaradan uzunmuddətli borclar | 863 750 | (895 040) |
| Faiz xərcləri yaradan qısamüddətli borclar | - | (2 682 168) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul** | | |
| **vəsaitlərinin xalis hərəkəti** | **4 612 547** | **(3 567 071)** |
| **Pul vəsaitləri və bank overdraftlarının xalis atması (azalması)** | **(1 310 789)** | **1 113 260** |
| İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları | 1 718 972 | 605 712 |
| İlin sonuna pul vəsaitləri və bank overdraftları | 408 183 | 1 718 972 |
| **İl ərzində artım/azalma** | **(1 310 789)** | **1 113 260** |

| | Azərbaycan manatı ilə | | | |
|---|---|---|---|---|
| | **Nizanmnamə kapitalı** | **Kapital ehtiyatları** | **Bölüşdürülməmiş mənfəət (zərər)** | **Cəmi kapital** |
| **31 dekabr 2015-ci il tarixə qalıq** | **11 136 000** | **156 577** | **(3 647 930)** | **7 644 647** |
| 2016-ci il üzrə xalis mənfəət (zərər) | - | - | **(3 214 552)** | (3 214 552) |
| Mülkiyyətçilərn kapital qoyuluşu | 300 | - | - | 300 |
| Təsisçilərə dividendlərin verilməsi | - | - | - | - |
| **31 dekabr 2016-cı il tarixə qalıq** | **11 136 300** | **156 577** | **(6 862 482)** | **4 430 395** |
| 2017-ci il üzrə xalis mənfəət (zərər) | - | - | **2 137 730** | 2 137 730 |
| Mülkiyyətçilərn kapital qoyuluşu | 3 760 000 | - | - | 3 760 000 |
| Təsisçilərə dividendlərin verilməsi | - | - | - | - |
| **31 dekabr 2017-ci il tarixə qalıq** | **14 896 300** | **156 577** | **(4 724 752)** | **10 328 125** |

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı ş.,
Q.Qarayev pr. 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Baku Electronics" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçilərinə**

**Rəy**

Biz **"Baku Electronics" Məhdud Məsuliyyətli Cəmiyyətinin** (bundan sonra Şirkət) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru** **Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**29 may 2018-ci il**

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti « ANR Audit » Limited Liability Company AZERBAIJAN REPUBLIC

4

## Bank VTB (Azərbaycan) dövlət qulluqçuları üçün kredit faizlərini endirib

VTB (Azərbaycan) dövlət qulluqçularının peşə bayramı münasibəti ilə elan etdiyi aksiya çərçivəsində dövlət strukturunda çalışan əməkdaşlar üçün kredit üzrə faiz dərəcələrini endirib.

Bankdan Trend-ə verilən məlumata görə, 22-29 iyun 2018-ci il tarixlərində dövlət qulluğunda olan vətəndaşlar 10 000 manatadək nağd pul kreditini 6 faizlik endirimlə – illik 22% ilə ala bilər.

Bundan başqa bankın kredit kartları üzrə 1% endirim nəzərdə tutulub. Bununla da kart üzrə faiz dərəcəsi – 27%-ə endirilib.

Təklifdən istifadə etmək üçün kredit üzrə müraciəti məsafəli xidmətlər – internet və mobil bank, +99455 2140986 nömrəli WhatsApp, bankın Çağrı mərkəzi və ya saytı vasitəsi ilə etmək lazımdır.

Bundan başqa, aksiya müddətində Visa Gold və Visa Platinum premium debet kartları sifariş edən müştərilər kart üçün illik xidmət üzrə 50% endirim qazanırlar.

## Azərbaycan Dünya Bankından verilən kreditdən imtina edəcək




Azərbaycan Dünya Bankından üçüncü "Azərbaycan kənd investisiyaları" (AZRIP-3) layihəsinin reallaşdırılması üçün verilən kreditdən imtina etmək niyyətindədir.

Trend-in məlumatına görə, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında maliyyə naziri Samir Şərifov deyib.

Onun sözlərinə görə, kənd investisiyaları üzrə layihə vacibdir və bu layihə davam etdiriləcək:

"Sadəcə biz Dünya Bankının kreditlərindən imtina etmək və layihəni daxili vəsaitlər hesabına reallaşdırmaq niyyətindəyik. Bu, onunla əlaqədardır ki, hökumət balanslaşdırılmış kredit siyasəti həyata keçirmək niyyətindədir. AZRIP-3, əsasən, tikinti və abadlaşdırma işlərini əhatə edir və xaricdən hər hansı avadanlıq və ya materialın gətirilməsi nəzərdə tutulmur".

## AtaBank"Gələcəyimizi indidən düşünək" layihəyəsinə dəstək oldu

Təhsil Nazirliyinin dəstəyi, Community.az və Green Line şirkətlərinin təşəbbüsü, "AtaBank" ASC-nin Baş sponsorluğu ilə "Məktəb icmaları" layihəsi çərçivəsində iyun ayından etibarən "Gələcəyimizi indidən düşünək" adlı sosial layihəyə start verilib.

Layihənin təşkil olunmasında əsas məqsəd yeniyetmələrə peşə seçimində kömək etmək, onların asudə vaxtının səmərəli təşkili, işsizlik probleminin aradan qaldırılması və karyera quruculuğuna dəstək olmaqdır.

Burada 11 Nömrəli İnteqrasiya Təlimli İnternat Məktəbinin IX sinif şagirdləri üçün bilik və bacarıqların artırılması məqsədi ilə bir sıra tədbirlər, təqdimatlar keçiriləcək. Bu tədbirlər uşaqların istedad və bacarıqlarına uyğun olaraq bərbər, dərzi, avtomexanik, florist, fotoqraf və digər ixtisaslar üzrə təşkil olunacaq.

Qeyd edək ki, peşə seçimi və ictimaiyyətə düzgün inteqrasiya mövzularında "Green Line" şirkətinin peşəkar psixoloqlar komandası tərəfindən keçiriləcək təlimlərə mühüm yer ayrılır.




1 ay davam edəcək layihə ərzində peşə sahələri üzrə ümumi məlumatlar veriləcək, praktiki təcrübələr keçiriləcək, şirkətlərin iş prosesinə ekskursiyalar təşkil olunacaq.

Layihənin yekununda potensial peşə-ixtisas sahələri və özünüinkişaf bacarıqları üzrə əldə etdikləri ilkin biliklər məktəblilərin arzu və amallarının gerçəkləşməsinə dəstək olacaq.

# "Unibank"ın sərfəli faizli depozit kampaniyası davam edir

İndi Unibankda depozit yerləşdirən hər kəs, illik əlavə 2% hədiyyə qazanır.

Bankdan Trend-ə verilən məlumata görə, Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibəti ilə keçirilən kampaniya çərçivəsində 30 iyunadək Unibanka manat depoziti yerləşdirən hər kəsə bankdan illik əlavə 2% də hədiyyə ediləcək. Aksiya çərçivəsində "Müddətli" depozitin faiz dərəcəsi müddətin sonuna 13%-ə, "Yığım" və "Proqressiv" depozitinin faiz dərəcəsi ilə illik 11%-ə yüksəlib.

Unibankın kampaniyasında iştirak etməklə hansı üstünlükləri qazanırsınız?

Ölkənin stabil inkişaflı və mənfəətli bankının 1 milyondan artıq müştərisindən biri olursunuz;

Bazarda çox sərfəli depozit faizləri əldə edirsiniz (maximum 13%-dək);

Depozitiniz Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunur;

Vəsaitiniz daha təhlükəsiz ünvanda saxlanılaraq, sizə illik artım gətirir.

Vəsaitinizi qorumağın və artırmağın ən yaxşı, təhlükəsiz və gəlirli üsulu depozit hesabı açmaqdır. Unibankın depozit kampaniyasında iştirak edərək, özünüzün və övladlarınızın gələcəyini indidən təmin edin!

Unibank müxtəlif əmanət növləri təklif etməklə, müştərilərə seçim imkanları verir:

**"Müddətli" əmanət**

İyunun 30-dək açılan "Müddətli" əmanət hesablarına müddətin sonuna 13% faiz hesablanacaq.

Əmanətin minimal məbləği 500 AZN/EUR/USD-dir. "Müddətli" əmanət növü 3-36 ay müddətinə açılır.

**"Yığım" əmanəti**

Hər ay gəlirindən bir qədər qənaət edib, yığım etmək istəyən müştərilər bankın "Yığım" əmanət növündə hesab aça bilərlər.




İlkin minimal məbləğ qoyuluşu 50 AZN/USD olan bu əmanət növündə, hesabınıza hər ay məbləğ əlavə etmək mümkündür. Kampaniya müddətində Unibankda illik 11%-lə "Yığım" əmanət hesabı aça bilərsiniz.

**"Proqressiv" əmanət**

Bu əmanət növü hesabdakı vəsaitlərini istənilən vaxt çıxaran və faizlərini itirmək istəməyənlər üçündür. Unibankın "Proqressiv" əmanətində minimum 200 AZN/USD depozit yerləşdirmək lazımdır. Manat valyutasında əmanətlər illik 11% gəlir gətirir.

Qeyd edək ki, Əmanətlərin Sığortalanması Fondunun qərarı ilə qorunan əmanətlərin yuxarı həddi 15% təşkil edir və Unibanka yerləşdirilən bütün əmanətlər sığortalanır.

Ətraflı məlumatı (012) 117 nömrəli telefondan, Bankın saytından (www.unibank.az ) və yaxud facebook və twitter səhifələrindən (www.facebook.com/unibank.az, twitter.com/unibank) və Unibankın filiallarından əldə etmək olar.

## "AtaBank" ASC Silahlı Qüvvələr Günü münasibəti ilə xüsusi kampaniya keçirir

"AtaBank" ASC 25 iyun-10 iyul 2018-ci il tarixlərində Silahlı Qüvvələr günü münasibəti ilə hərbçilərimiz üçün xüsusi kampaniyaya start verir. Kampaniyanın şərtləri isə çox rahatdır. Hərbçivəsiqəsini təqdim etməklə "AtaBank" ASC-nin VİSA Electron plastik kartlarına 50% endirim əldə etmək olar.

Kampaniyanın əsas məqsədi bayram əhval-ruhiyyəsini qaldırmaq və hərb-




çilərimizə bu bayram günlərində sevinc hissi bəxş etməkdir.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır.

Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

## PAŞA Bank «Visa İnternational» tərəfindən sertifikatla mükafatlandırılıb

Ölkənin aparıcı korporativ bankı PAŞA Bank «Azərbaycanda Visa plastik kartları ilə nağdsız əməliyyat sayı üzrə ən sürətli artım tempinə nail olduğuna görə» «VisaInternational» beynəlxalq ödəniş sistemi tərəfindən sertifikatla təltif edilmişdir. Sertifikat «VisaInternational»-ın Azərbaycan, Belarus və Moldova ölkələri üzrə rəhbəri İqor Kovalev tərəfindən təqdim edilmişdir. 2012-ci ildən etibarən Bank bu beynəlxalq ödəniş sisteminin prinsipial üzvüdür. Xatırladaq ki, PAŞA Bank, həmçinin 2017-ci ilin yekunlarına görə, yerli bazarda «Nağdsız ödənişlər üzrə Lider Bank» adına da layiq görülmüşdür. Bu mükafat illik əsasda Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən Azərbaycan Banklar Assosiasiyası ilə tərəfdaşlıqda bank seqmentinin bütün iştirakçıları arasında keçirilən müsabiqə çərçivəsində verilmişdir.

# İcbari Sığorta Bürosunun fəaliyyəti və gələcək perspektivlər Bakıda keçirilmiş sığorta forumunda işıqlandırılıb

20-21 iyun tarixlərində Bakı şəhərində "Azərbaycanda sığorta: yeni perspektivlər" mövzusunda Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının rəsmi dəstəyi və Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı ilə beynəlxalq sığorta forumu keçirilib. Çoxsaylı yerli və xarici qonaqların, dövlət və hökumət nümayəndələrinin, eləcə də nüfuzlu beynəlxalq ekspertlərin qatıldığı forumun işində İcbari Sığorta Bürosunun (İSB) icraçı direktoru Rəşad Əhmədov da məruzəçi qismində iştirak edib. Panel müzakirələri formatında təşkil edilmiş tədbirin "İcbari avtoməsuliyyət sığortası sahəsində yeni imkanlar" mövzusundakı sessiyasında təqdimatla çıxış edən R.Əhmədov İSB-nin fəaliyyəti, mandatına aid edilmiş icbari sığorta növləri və Büronun gələcəyə baxışına dair iştirakçılara geniş məlumat verib.

Çıxışına Büronun korporativ profilinə qısa baxışla başlayan R.Əhmədov təşkilatın missiyası və üzərinə qoyulmuş vəzifələr barədə danışıb. O bildirib ki, Büro sığortalıların və zərərçəkən üçüncü şəxslərin maraqlarının müdafiəsinin, həmçinin icbari sığortalar sisteminin sabitliyi və inkişafının təmin edilməsi məqsədilə yaradılmışdır. Büronun missiyalarından biri də müvafiq statistik və digər faydalı məlumatların təqdim edilməsi yolu ilə sığorta bazarı iştirakçılarının dəstəklənməsindən ibarətdir. İSB-nin qanunvericiliklə müəyyən edilmiş bir sıra fəaliyyət sahələrinin olduğunu qeyd edən R.Əhmədov Büronun sığortasız sürücülükdən zərərçəkənlərə kompensasiya ödənişləri verən qurum, zəmanət fondu, informasiya sistemi, eləcə də milli Yaşıl Kart bürosu qismində funksiyalarını önə çəkib. Onun sözlərinə görə, İSB-nin informasiya sistemi icbari sığortaya cəlb olunmuş avtonəqliyyat vasitələrinə, onların sahiblərinə və daşınmaz əmlaka dair məlumatların akkumulyasiya olunduğu mərkəzi məlumat bazasıdır. Bu sistem vasitəsilə icbari sığorta müqavilələrinin elektron şəkildə bağlanılması, bazar iştirakçıları üçün statistika və hesabatlılığın təmin edilməsi, sığorta müqavilələrinin cari vəziyyətinə dair vətəndaşların SMS və e-mail vasitəsilə məlumatlandırması, sığortalıların Bonus-Malus göstəricilərinin hesablanması və sığorta tələblərinin tənzimlənməsi üzrə fəaliyyətin təşkili mümkündür.

Büronun başlıca funksiyalarından biri olan milli Yaşıl Kart qurumu fəaliyyətinə toxunan R.Əhmədov Azərbaycanın beynəlxalq "Yaşıl Kart" sığortası sisteminə qəbul edilməsi və hazırda sistem çərçivəsindəki fəaliyyəti barədə tədbir iştirakçılarına qısa məlumat verdi. Belə ki, İSB tərəfindən ilk dəfə 2012-ci ildə "Yaşıl Kart"sisteminin idarəedici təşkilatı olan Bürolar Şurasına müraciət olunmuş və 2015-ci ilin may ayında Azərbaycan İSB-nin timsalında "Yaşıl Kart" sisteminə keçici statuslu üzv qismində qəbul olunmuşdur. Beləliklə, 2016-cı ilin yanvar ayından etibarən "Yaşıl Kart" sistemi Azərbaycanda öz fəaliyyətinə başlamışdır. Yaşıl Kart sistemi barədə danışan R.Əhmədov çıxışı zamanı məlumat verdi ki, cari ilin iyun ayında İspaniyanın paytaxtı Madrid şəhərində keçirilmiş Bürolar Şurasının Baş Assambleyasında Azərbaycan milli Yaşıl Kart bürosunun öz fəaliyyəti ərzində təşkilatın bütün tələblərinə cavab verdiyi, sistem çərçivəsində digər bürolarla müsbət əməkdaşlıq etdiyi və öz öhdəliklərini vaxtlı-vaxtında və tam şəkildə icra etdiyi vurğulanmışdır.



Daha sonra icbari sığorta seqmentlərinə dair statistik məlumatlarla davam edən çıxış zamanı bildirildi ki, ötən il ərzində İSB-nin informasiya sistemi vasitəsilə 1,32 mln.-dan artıq icbari sığorta müqavilələri bağlanmış, bu müqavilələr üzrə sığorta şirkətlərinə daxil olmuş sığorta haqlarının cəmi məbləği 151,53 mln. manata bərabər olmuşdur. Ötən il ərzində sığorta şirkətləri tərəfindən sığorta tələbləri üzrə verilmiş ödənişlərin həcmi 52,13 mln. manat təşkil etmişdir.

Təqdimatın ən maraqlı hissələrindən biri də ölkədə ən geniş yayılmış sığorta növü olan avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının (AVSMMİS) rəqəmsallaşdırılması və bu sahədə aparılmış digər təkmilləşdirmə işləri ilə bağlı olmuşdur. Bildirilmişdir ki, 2016-cı ilin sonlarından etibarən AVSMMİS müqavilələri tamamilə elektron şəkildə buraxılmağa başlanılıb və bu icbari növ üzrə kağız müqavilələrdən imtina olunub. Elektron sistemə keçid sayəsində icbari avtomobil sığortası sahəsində müqavilə buraxılışı və sığorta haqlarının ödənilməsi prosesləri sadələşdirilərək vətəndaşların rahatlığına səbəb olmuşdur.

Sistemin üstünlüklərindən biri də aidiyyatı dövlət qurumlarının informasiya sistemləri ilə aparılmış inteqrasiyalar sayəsində AVSMMİS müqavilələrinin bağlanılması zamanı mexaniki xətaların baş verməsi ehtimalının tamamilə aradan qaldırılmasıdır. Görülmüş işlərin nəticə etibarilə icbari avtomobil sığortası sahəsində şəffaflığın yüksəldilməsinə, istifadəçi rahatlığının artırılmasına və mümkün fırıldaqçılıq hallarının profilaktikasına töhfə verdiyi vurğulanmışdır.

R.Əhmədov vurğulayıb ki, qarşıdakı dövrdə təşkilatın qarşısında icbari avtomobil sığortası sahəsində sığorta tələblərinin birbaşa tənzimlənməsi və bu icbari növlə bağlı etimadın və məlumatlılığın artırılması, digər icbari sığorta növlərinin elektronlaşdırılması və bu məqsədlə müvafiq tərəfdaş dövlət qurumları ilə texniki inteqrasiyaların həyata keçirilməsi, daşınmaz əmlakla bağlı olan icbari sığorta növlərinin nüfuz səviyyəsinin yüksəldilməsi, sığortaçıların anderraytinq məlumatları ilə təchiz edilməsi və digər mühüm vəzifələr müəyyən edilmişdir. Xüsusilə daşınmaz əmlakla bağlı icbari sığorta növlərinin populyarlaşdırılması istiqamətində görüləsi xeyli işin olduğu vurğulanmış, icbari sığortalar bazarının bu seqmentlərində ümumilikdə 300 mln. manata yaxın potensialın olduğu diqqətə çatdırılmışdır. Eyni zamanda, qarşıdakı dövrdə işəgötürənlərin öz işçiləri qarşısında mülki məsuliyyətinin icbari sığortasının da diqqət mərkəzində olacağı qeyd edilmişdir, belə ki vətəndaşların iş prosesində baş verə bilən bədbəxt hadisələr zamanı sığorta təminatı altında olması olduqca mühüm məsələlərdəndir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə nəzərdə tutulan inteqrasiya sığortasız məşğulluq hallarının tamamilə ortadan qaldırılmasına xidmət edəcəkdir.

Büro rəhbərinin sözlərinə görə, təşkilatın missiyası həm də vətəndaşların icbari sığorta növləri barədə müxtəlif media kanalları vasitəsilə məlumatlandırılmasını ehtiva edir və bu sahədə, eləcə də əhalinin sığorta savadlılığının yüksəldilməsi istiqamətində işlərin görülməsi prioritetlər sırasına daxil edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# Yerli süd məhsulları bazarında vəziyyət: problemlər və həlli yolları

Ölkəmizin qeyri-neft sektorunun aparıcı sahələrindən biri də süd emalıdır. Bu sahə bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi, mühüm inkişaf potensialına malikdir. Süd emalı sahəsi üçün xammal bazası rolunu oynayan heyvandırlıq sektoru artıq yüz illəridr ki, ölkə əhalisinin başlıca məşğuliyyət sahəsi olaraq qalmaqdadır. Digər tərəfdən, süd sənayesinin bütün məhsulları ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün zəruri olan qida səbətinin ən vacib məmulatları hesab edilir.

Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqların hazırkı strukturu və həcmi nəinki ölkə əhalisinin süd məhsullarına olan tələbatını tam ödəməyə, həmçinin bu məhsulların dünya bazarılarına ixracına da imkan verir.

Süd və süd məhsulları əhalinin ərzaq istehlakında mühüm paya malik olan qida məhsullarındandır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2005-ci il tarixli 118 saylı qərarına əsasən, hər bir əmək qabiliyyətli şəxs il ərzində 671 kiloqramdan az olmayaraq müxtəlif qida məhsulları (çörək və çörək məmulatları, süd və süd məmulatları, ət və ət məmulatları, meyvə-tərəvəz və s.) istehlak etməlidir ki, qüvvədə olan normativə əsasən həmin qida kütləsinin də təxminən 34,4%-ni və ya 230,6 kiloqramını süd və süd məhsulları (kərə yağı da daxil) təşkil etməlidir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə süd istehsalı 2016-cı illə müqayisədə 0,8% artaraq 1,847,1 min ton təşkil etmişdir.

Cari ilin mart ayında ölkəmizdə süd və süd məhsulları istehsalçılarının təşəbbüsü, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyası təsis edilib.

Assosiasiya süd və süd məhsullarının istehsalı sahəsində sahibkarlığın inkişafına, bu sahədə yeni texnologiyaların tətbiqinə, istehsalın və ixracın artmasına dəstək göstərir. Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyasının təsis yığıncağında Samir Eyyubov qurumun idarə heyətinin sədri seçilib. Sədrin sözlərinə görə, yeni yaradılmış Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyasının məqsədi ölkədə istehsal keyfiyyətinin artırılmasına, məhsul ixracına dəstək verməkdir. Resurslara qənaət, yüksək keyfiyyətli standartların hazırlanması və tətbiqi, kadr problemlərinin həlli, xarici bazarlara daha rahat çıxış əldə edilməsi istiqamətləri üzrə fəaliyyət göstərəcəyik.

S.Eyyubovun sözlərinə görə, Azərbaycanın süd məhsulları bazarında əsas problem valatillikdir: "Südün xammal kimi qiyməti sabit deyil, hər iki-üç aydan bir qiymət artımı və yaxud azalması halları müşahidə edilir. Bəzən 30-40%-ə qədər fərq yaranır. Bu isə uzunmüddətli planları həyata keçirməyə mane olur".

O, həmçinin bildirib ki, Azərbaycana idxal olunan süd məhsuları yerli istehsalla müqayisədə ucuz başa gəlir: "Bu istiqamətdə də tədbirlər həyata keçirməyə ehtiyac var. Yerli məhsulların xarici analoqları ilə müqayisədə rəqabətqabiliyyətli olması istiqamətində də iş aparılmalıdır, onların yüksək keyfiyyətini qorumaqla daha ucuz başa gəlməsinə çalışılmalıdır".

**Bəs, Avropa ölkələrində vəziyyət necədir?**

Ekspert Vahid Məhərrəmov vəziyyəti Avropa ölkələri ilə müqayisə edir: "Avropa ölkələrində 1 litr südün maya dəyəri 69 qəpiyə başa gəlir. Lakin südün həyat üçün əhəmiyyəti nəzərə alınaraq və onun istehlakçılar üçün əlçatan olmasını təmin etmək məqsədilə 35 qəpiyə satılır. Azərbaycanda əhalinin alıcılıq qabiliyyəti aşağı olsa da, südün 1 litrinin qiyməti 1 manatdan yuxarı təklif edilir. Onu da nəzərə alaq ki, Avropada əhaliyə yüksək keyfiyyətli süd və süd məhsulları təklif olunur. Bu sahədə çox ciddi nəzarət sistemi mövcuddur".

MDB ölkələri arasında yalnız Belarus süd və süd məhsullarına olan ehtiyacını tam ödəyir. Belarus adambaşına ildə 703 litr süd istehsal edir. V.Məhərrəmov onu da qeyd edir ki, Qazaxıstan 287 litrlə ikinci, Ukrayna 253 litrlə üçüncü yerdə gəlir. Ermənistanda 208 litr, Azərbaycanda isə 193 litr süd istehsalı olunur.

**Südün maya dəyəri yüksək, satış qiyməti aşağıdır**

Etiraf edək ki, hazırda Azərbaycanın süd istehsalçıları digər ölkələrin, məsələn, Rusiya, Qazaxıstan və digər ölkələrin süd bazarında yer tuta bilmir. Süd ixracı mövcud olsa da, lazımi səviyyədə deyil", - deyə İctimai Birlik rəhbəri Samir Eyyubov deyib. Onun sözlərinə görə, Rusiya Türkiyə məhsullarına sanksiya tətbiq etdikdən sonra bazarda boşluq yaranıb, amma buna baxmayaraq, Azərbaycan məhsulları həmin boşluğu doldura bilməyib. Belarus məhsulları bazarda üstünlüyü ələ keçirib". O, buna əsas kimi, yerli südün maya dəyərinin yüksək olmasını göstərib.

Hazırda süd istehsalçılarının qarşılaşdıqları problem ondan ibarətdir ki, südün maya dəyəri yüksək, satış qiyməti isə aşağıdır.



Fermerlər çiy südün satış qiymətinin aşağı olmasından narazıdır. Elə ötən ay Bakıda keçirilmiş fermerlərin və süd emalçılarının birgə konfransında (11 may 2018-ci il) istehsalçılar bu məsələyə toxunaraq, ağır vəziyyətdə olduqlarını bildirmişdilər. Adını açıqlamayan fermerlərdən biri demişdir ki, ölkəyə xaricdən quru süd gətiriləndə yerli təbii südün alış qiyməti aşağı olmalıdır. Bu məsələ Kənd Təsərrüfatı Nazirliyinin qarşısında qaldırılmalıdır. Kiçik fermerlərin adından danışan Elşən Quliyev isə bildirmişdir ki, südün qiymətinin aşağı düşməsi araşdırılmalıdır. Onun fikrincə, bu məsələ araşdırılmalı, monitorinq aparılmalıdır. Südün qiymətinin ucuz olmasının səbəbi müəyyən edilməlidir. Fermerlərin fikrincə, buna səbəb quru süddür. Gündəlik 1 ton süd istehsal edən fermerlər südün litrini 40-45 qəpikdən satır. Fermerlər, həmçinin yoncanın və qarğıdalının qiymətinin bahalaşdığını (müvafiq olaraq 5 man. və 35-43 qəp.) söyləmiş, ötən illə müqayisədə yoncanın qiymətinin 2 dəfə artdığını, yemin, kəpəyin də bahalaşdığını bildirmişlər. Kiçik fermerlər südü 45 qəpiyə satanda gəlir əldə edə bilmir. Bundan əlavə, işçilərin maaşını da verə bilmirlər. Fermerlər bütün bunları araşdırmağı Kənd Təsərrüfatı Nazirliyindən xahiş etmişlər.

"Şahdağ" Fermer təsərrüfatının nümayəndəsi Yusif Cəlilov bildirmişdir ki, təsərrüfatlarında 1500 baş heyvan mövcuddur: "2017-2018-ci ildə süd satışı ilə əlaqədar üzləşdiyimiz problemi mən heç vaxt görməmişəm. Çox ciddi problemdir. Gündəlik istehsalımız 10 tondur. Bunun 8-9 tonunu satışa çıxarırıq. Biz bu südü sata bilmirik. Satdığımız halda da pulunu ala bilmirik. 150 əməkdaşımız var. Onların əməkhaqlarını heyvanları satıb ödəyirik. Belə getsə, 1 il davam gətirə bilməyəcəyik. Tezliklə əməli addımlar atılmalıdır".

Konfransda çıxış etmiş Azərbaycanın süd məhsulları istehsalçısı "Milk - Pro" şirkətinin ("Milk Pro" MMC "Sevimli Dad" markası ilə süd məhsulları istehsal edir) direktoru Mövsüm Şıxıyev bildirib ki, iş adamlarının süd emalına əlavə sərmayə yatırmaları üçün yeni satış bazarları müəyyən olunmalı və ölkədə kifayət qədər çiy süd istehsal edilməlidir. Onun sözlərinə görə, bugünkü emal müəssisələri potensiallarının 20-25%-i ilə işləyirlər. Bunu 100%-ə çatdırmaq üçün əlavə sərmayəyə ehtiyac var. Onun sözlərinə görə, Azərbaycan bazarı böyük bazar deyil. Üstəlik, süd məhsullarının böyük hissəsi evlərdə istehsal olunur. Dünya standartlarına uyğun süd məhsulları istehsal etmək və xarici bazarlara çıxmaq üçün bizim alıb quraşdıracağımız avadanlıqlar müasir olmalıdır. 9 milyonuq daxili bazar üçün xeyli maliyyə vəsaiti xərcləyib xüsusi avadanlıqlar almaq sərf etmir. Əgər xüsusi avadanlıqlar alınacaqsa, istehsal olunacaq məhsulların böyük hissəsi xarici bazarlara göndərilməlidir. Sərmayə yatırıb emal zavodunu genişləndirən iş adamı daxili bazardan tələb olunan miqdarda çiy süd ala biləcəyinə əmin olmalıdır. Heç bir emal müəssisəsi südün stabil mövcudluğundan əmin olmayana qədər sərmayə yatırmayacaq. Südçü də arxayın olmalıdır ki, məhsuldarlığı artıraraq daha çox istehsal edəcəyi südü sata biləcəkdir. Xarici bazarlarda rəqabət aparmaq üçün çiy südün fermerlərdən alış qiyməti aşağı olmalıdır. Süd elə bir qiymətə olmalıdır ki, fermerə sərf etsin, xərclərini bağlaya bilsin və qazanc götürsün. Buna görə südün qiyməti adekvat olmalıdır.

**Süd istehsalçılarına subsidiya verilməsi təklif olunur**

Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə Heyətinin sədri Samir Eyyubov yerli süd bazarında satışla bağlı ciddi problemlərin olduğunu etiraf etmiş və demişdir ki, hazırda istehsalçıların əlində böyük həcmdə süd qalıb.

Onun sözlərinə görə, ölkədə süd məhsullarına tələbat azalsa da, süd istehsalı artmaqdadır: "Aqrolizinq" ASC-nin xətti ilə Azərbaycana kütləvi şəkildə heyvan gətirilir. Onların da məhsuldarlığı yüksəkdir. Son nəticədə süd istehsalı kəskin artıb. İki ay bundan əvvəl litri 75-85 qəpiyə satılan süd indi 45 qəpiyədir. Hətta bu qiymətə belə istehsalçılar sata bilmirlər".

S.Eyyubov deyib ki, rəhbərlik etdiyi qurum süd istehsalçılarına subsidiya verilməsi üçün hökumətə müraciət edəcək: "Hökumət qarşısında məsələ qaldırmaq istəyirik. İstehsalçılara qismən subsidiya ayrıla bilər. Bundan başqa, əlavə dəyər vergisi ilə bağlı dəyişikliklərə ehtiyac var. Bununla bağlı da təklif irəli sürəcəyik".

Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları" İctimai Birliyinin (ASEB) sədri Samir Eyyubov qeyd edilən problemin onlara məlum olduğunu bildirmiş, demişdur: "Hazırda 1 litr südün maya dəyəri 62 qəpikdir. Südün alış qiyməti isə 40-45 qəpikdir. İstehsalçıların hər litr süddə 20-25 qəpik ziyanı var. Biz südün alış qiymətinin qaldırılmasının tərəfdarı deyilik. Südün alış qiyməti qaldırılan zaman, süd məhsulları bahalaşır. Belə olan halda da xarici istehsalçılar ucuz məhsulları ilə bazardan pay almağa cəhd edirlər. Biz südün maya dəyərinin aşağı salınmasının tərəfdarıyıq. Təklif edirik ki, dövlət fermerlərə kooperativlər yaratmaqda dəstək versin. Kooperativlər fermerlərin daha aşağı qiymətlə yem bazası formalaşdırmalarına gətirib çıxaracaqdır. Həmçinin, 1 litr südə dövlət tərəfindən müəyyən məbləğdə subsidiyanın ödənilməsini təklif etmişik. Süd istehsalçısı həm subsidiya aldığından, həm də yem xərclərində qənaət etdiyindən süd satışından xalis gəlir götürə biləcəkdir ".

Onu da qeyd edək ki, hazırda südün maya dəyərinin azaldılması məsələsi üzərində də işlər gedir. Bunun üçün ASEB Kənd Təsərüfatı və İqtisadiyyat nazirlikləri ilə ortaq proqram hazırlamaq niyyətindədir. Qurum sədrinin sözlərinə görə, bu gün fermerlər ziyanla işləyir. Emalçılar südü daxili bazarda yüksək qiymətə satdığı üçün xarici məhsullar bazara daxil olur. Çünki süd bahalı olduqda bazarda boşluq yaranır. Üstəlik, məhsulu ixrac etmək də olmur. Onun sözlərinə görə, bazarda hazırda dövlət nəzarətindən kənar məhsullar istehsal edilir. Bəzi məhsulların üzərində nə kod, nə də ki geniş məlumat olur. Bazarın kiçik oyunçuları dövlətin qoyduğu standartlara uyğun fəaliyyət göstərməlidir.

**Yeganə MƏMMƏDOVA**

# «Göygöl Şərab Zavodu» ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-ci il |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | 7 | 20 283 906 | 19 947 868 |
| Qeyri-maddi aktivlər | 8 | 105 042 | 103 047 |
| Digər müəssisələrə investisiyalar | 9 | 100 | 100 |
| | | ***20 389 048*** | ***20 051 015*** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 10 | 26 070 979 | 16 973 810 |
| Qısamüddətli debitor borcları | 11 | 2 633 298 | 1 984 636 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 180 717 | 157 356 |
| Sair qısamüddətli maliyyə aktivləri | 14 | - | - |
| Sair qısamüddətli aktivlər | 12 | 331 036 | 83 445 |
| | | ***29 216 030*** | ***19 199 247*** |
| **CƏMİ AKTİVLƏR** | | **49 605 078** | **39 250 262** |
| KAPİTAL | | | |
| Səhmdar kapitalı | 19 | 461 896 | 461 896 |
| Kapital ehtiyatları | 20 | 4 279 343 | 4 279 343 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (10 775 315) | (5 759 232) |
| **CƏMİ KAPİTAL** | | **(6 034 076)** | **(1 017 993)** |
| ÖHDƏLİKLƏR | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 15 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | - | - |
| Qısamüddətli kreditor borcları | 17 | 611 027 | 362 957 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 55 028 127 | 39 905 298 |
| | | ***55 639 154*** | ***40 268 255*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **55 639 154** | **40 268 255** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **49 605 078** | **39 250 262** |

**MƏCMU GƏLİRLƏRƏ DAİR HESABAT (MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI)**

***31 dekabr 2017-ci il tarixinə*** *Azərbaycan Manatı ilə*

| | Qeyd | 2017 | 2016 |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 21 | 3 904 674 | 5 313 286 |
| İcarədən gəlirlər | 21 | 101 695 | 101 695 |
| **Ümumi əməliyyat gəlirləri** | | **4 006 369** | **5 414 981** |
| **Əməliyyat xərcləri** | 24 | **(8 999 693)** | **(8 175 675)** |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **(4 993 324)** | **(2 760 694)** |
| Maliyyə gəlirləri | 22 | - | - |
| Maliyyə xərcləri | 26 | - | (23 994) |
| Fövqəladə gəlirlər | 23 | 118 430 | 435 371 |
| Fövqəladə xərclər | 25 | (141 189) | (8 400) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **(5 016 083)** | **(2 357 717)** |
| Mənfəət vergisi xərci | 27 | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | - | - |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Səhmdarların payı | | - | - |
| | | - | - |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| bir səhmin əsas mənfəəti | 28 | - | - |

Ələsgər Yahyayev
*İdarə heyətinin sədri*

15 may 2018-ci il

Asif Cəfərov
*Baş mühasib*

15 may 2018-ci il

ANR Audit

**"ANR Audit" MMC**
AZ1096, Bakı ş.,
Q.Qarayev pr. 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Göygöl Şərab zavodu" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına**

**Rəy**

Biz **"Göygöl Şərab zavodu" Açıq Səhmdar Cəmiyyətinin** (bundan sonra Şirkət) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından və maliyyə hesabatlarına izahlı qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru** **Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**15 may 2018-ci il**

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Azərbaycan Xalq Cümhuriyyəti və təhsil

Dünya tarixinin ən demokratik dövlət qurumlarından biri olan Azərbaycan Xalq Cümhuriyyəti çox qısa müddətdə (1918-ci il 28 may-1920-ci il 28 aprel) fəaliyyət göstərməsinə baxmayaraq, sosial, siyasi, iqtisadi, səhiyyə, hərbi, sənaye və digər sahələrdə misilsiz təşəbbüslər həyata keçirməsi ilə tarixdə dərin izlər qoymağı bacarmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətindən çox uzun bir dövr keçsə də, onun təhsil və xalq maarifi sahəsində atdığı addımlar öz bəşəri və humanist məzmunu ilə bu gün də öz aktuallığını saxlamaqdadır.

AXC hökumətinin təhsil və maarif sahəsində gördüyü işlər, həyata keçirdiyi tədbirlər bir çox istiqamətləri əhatə etmiş, Azərbaycan dilinin dövlət dili elan edilməsindən ana dilində məktəblərin açılmasına, milli kadrlar yetişdirilməsindən azərbaycanlı tələbələrin ali təhsil almaq üçün Avropa ölkələrinə göndərilməsinə qədər geniş əhatə dairəsinə malik olmuşdur.

Xüsusilə qeyd edilməlidir ki, AXC-nin mədəni-maarif sahəsində həyata keçirdiyi tədbirlərdə milli mənafelərə hörmət prinsipi çox mühüm xarakter daşıyır və demokratik prinsiplərə əsaslanırdı. Bu isə nəinki ölkə vətəndaşlarının, eyni zamanda, Azərbaycanda yaşayan digər millətlərin də mənafeyinə uyğun olmaqla, onların mədəni inkişafına geniş imkan yaradırdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində xüsusi önəm verdiyi məsələlərdən biri tədrisin ana dilində keçirilməsi idi. Məhz bunun nəticəsi idi ki, təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir də məktəblərin milliləşdirilməsi ilə bağlı oldu. 1918-ci il 27 iyun tarixli qərarla Azərbaycan-türk dili dövlət dili elan edildi. 1918-ci il 28 avqust tarixli qərarında isə AXC hökuməti bütün ibtidai tədris müəssisələrində təhsilin ana dilində aparılması və dövlət dili olan ana dilinin tədrisinin icbari surətdə həyata keçirilməsini vacib şərt kimi irəli sürdü. Hətta ana dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə rus şöbələri də açılır və Azərbaycan dili burada intensiv surətdə tədris olunurdu. Bu siniflərdə Azərbaycan dilinin tədrisinin müddəti həftədə 4 saatdan az ola bilməzdi.

Azərbaycan dilinin inkişafı məqsədilə hətta 1919-cu ildə Bakı, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlı əhali üçün axşam kursları da açılmışdı.

AXC hökumətinin ana dilinin inkişafı ilə bağlı belə mütərəqqi addımlar atmasına baxmayaraq, Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların çatışmazlığı qərarın həyata keçirilməsində problemlər yaradırdı. Ona görə də bir sıra sahələrdə müvəqqəti olaraq Azərbaycan dilini bilən ixtisaslı kadrların yetişdirilməsinə qədər rus dilindən istifadə edilməsinə icazə verildi. Bu çatışmazlıq özünü xüsusi olaraq tədris müəssisələrində daha çox göstərirdi. Müəllimlərə olan ehtiyacı ödəmək üçün Gəncə, Şəki və Zaqatalada qısamüddətli pedaqoji kurslar da açıldı. Hətta Gəncədə fəaliyyət göstərən müəllim seminariyası kadrlara olan ehtiyacı ödəyə bilmədiyindən Maarif Nazirliyi Qori müəllim seminariyasının Azərbaycan şöbəsinin müstəqil seminariya kimi Qazaxa köçürülməsi haqqında qərar qəbul etdi.

AXC hökumətinin təhsilə, maarif sahəsinə ayırdığı diqqətin və göstərdiyi qayğının nəticəsi idi ki, 1919-cu ilin yayında ölkədə qısamüddətli pedaqoji kurslar təşkil edildi. Hər kursda 50 nəfər təhsil alırdı və təhsilini başa vurduqdan sonra dərhal müəllimlik fəaliyyəti ilə məşğul olurdular. Hətta müəllim kadrlarına olan ehtiyacın ödənilməsi məqsədilə Xalq Maarif Nazirliyi 1918-ci il iyun ayının 4-də Türkiyə ilə imzaladığı müqaviləyə əsasən oradan ölkəyə 50 nəfər müəllim də dəvət etmişdi. 23 aylıq qısa ömrü ərzində AXC, həqiqətən də, Azərbaycanda təhsil sahəsində çox gərgin işlər görmüş, mütərəqqi addımlar atmışdır. Hətta ölkədə daxili vəziyyətin gərgin olduğu, Ermənistanın Azərbaycana qarşı müdaxiləsinin davam etdiyi bir zamanda Xalq Maarif Nazirliyi öz doğma yerlərini tərk edərək, Bakı quberniyasına gəlməyə məcbur olmuş minlərlə qaçqın arasında müəllim ailələrinə kömək məqsədi ilə 20.000 manat pul ayırmışdı. Hətta onların mənzil və işlə təmin olunması məqsədilə çoxsaylı tədbirlər də görmüşdü.

Maarif Nazirliyi, həmçinin Bakı və digər yerlərdə dərsliklərə, məktəb ləvazimatlarına olan böyük ehtiyacı nəzərə alaraq, məktəblərin bu vasitələrlə təchizi məsələsini də öz öhdəsinə götürmüşdü. Elə Azərbaycan Müəllimlərinin Birinci Qurultayında məktəblərin lazımi dərs vəsaitləri ilə təmin edilməsi səsləndirilən əsas təkliflərdən olmuşdur. Məktəb islahatı sahəsində əsaslı məsələlərin ətraflı müzakirə olunması və lazımi təkliflərin hazırlanaraq hökumətə təqdim olunması məqsədilə çağırılmış bu qurultay AXC hökumətinin qərarı ilə 1919-cu il avqustun 20-dən sentyabrın 1-dək Bakıda, birinci realnı məktəbin (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) binasında keçirilmişdir.



Azərbaycan Xalq Cümhuriyyətinin tədris müəssisələrinin lazımi ədəbiyyatla təchiz edilməsi məsələsinə göstərdiyi xüsusi qayğının nəticəsi idi ki, Xalq Maarif Nazirliyi Azərbaycan dilində dərsliklərin yazılması və nəşri üçün komissiya təşkil etmiş, Türkiyədən dərs vəsaiti və dərsliklər alınmışdı. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri H.Cavid, M.Mahmudbəyov, A.Şaiq, C.Cəbrayılbəyli, S.Ağamalıoğlu, F.Ağazadə, A.İsrafilbəyov, A.Əfəndizadə və başqaları fəal iştirak edirdilər.

Azərbaycanda ali təhsilin təşkili və ali təhsilli milli kadrların hazırlanmasını qarşısına ən mühüm vəzifələrdən biri kimi qoyan AXC hökuməti bu məsələnin həllini ölkədə ali təhsil müəssisələri yaratmaq, eyni zamanda, azərbaycanlı gəncləri xarici ölkələrin müxtəlif ali təhsil müəssisələrinə göndərməklə də həll etməyə cəhd göstərirdi.

Azərbaycan parlamentinin qərarına əsasən, 1919-cu il sentyabrın 1-də Bakıda universitetlər təşkil edilməsi haqqında 10 maddəli qanun da hazırlanmışdı. Azərbaycan hökuməti Xalq Maarif Nazirliyinə, ilk növbədə üç ali məktəbin – Bakı Dövlət Universiteti (BDU), Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyasının açılması məsələsini tapşırmışdı. Bakıda Kənd Təsərrüfatı İnstitutunun açılması hökumətin 1919-cu il 5 mart tarixli iclasında bəyənilmiş, hətta Xalq Maarif Nazirliyinə bu məsələ ilə əlaqədar qanun layihəsi hazırlayıb parlamentə təqdim etmək də tapşırılmışdı. Lakin o dövrdə mövcud olan tarixi şərait yalnız bir ali məktəbin – Bakı Dövlət Universitetinin açılmasına imkan verdi.

Bakı Dövlət Universitetinin ilk rektoru tanınmış tibb alimi, cərrah Vasili İvanoviç Razumovski olmuşdur. V.İ.Razumovski Azərbaycanın ali təhsil sisteminin yaradılması və inkişafında çox böyük xidmətlər göstərmişdir. Universitetin təsis olunmasını böyük xoşbəxtlik hissi ilə qarşılayan Razumovski bu münasibətlə parlamentdəki çıxışında demişdi: "Azərbaycan öz maarif ocağını yaratdı, türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni məşəl yandı".

Azərbaycanın ali təhsil sistemi sahəsində xüsusi rol oynayan BDU-da ilk dərs günü 1919-cu il noyabrın 15-də keçirilmişdir. İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. 1922-ci ildə isə BDU özünün ilk məzunlarını yeni həyata yola saldı. 30 nəfər gənc həkim adına layiq görülərək, universitet diplomu aldılar. Bu məzunlardan ikisi - Ədilə xanım Şahtaxtlı tibb sahəsində ilk azərbaycanlı qadın elmlər doktoru, Cənnət xanım Sultanova isə respublikanın adlı-sanlı həkimi oldular.

BDU-nun öz bacarığı ilə fərqlənən və onun şöhrətini dünyaya yayan, sonralar görkəmli yazıçı, şair, mədəniyyət və dövlət xadimləri kimi adlarını tarixə yazdırmağı bacaran məzunları çox olub. Lakin bu məzunlar içərisində xüsusilə fərqlənəni umumdünya tarixinin dahi şəxsiyyətləri sırasında layiqli yer tutan, Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev olmuşdur. BDU-nun tarix fakültəsinin məzunu olan ulu öndərlə universitetin çoxminli kollektivi hər zaman qürur duymuş və duymaqdadır. Heydər Əliyev də BDU məzunu olduğu üçün fəxr etdiyini dəfələrlə "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" sözləri ilə ifadə etmişdir.

AXC dövründə cəmiyyətin maariflənməsi, təhsil sahəsində irəliyə doğru addımların atılmasında Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən I (1906) və II (1907) qurultaylarında iştirak etmiş, Fərhad Ağazadə və Abdulla bəy Əfəndizadə ilə tərtib etdiyi əlifba layihəsini müzakirəyə çıxarmış Süleyman Sani Axundovun, ictimai xadim, yazıçı və mütəfəkkir, öz fəaliyyəti boyunca hər zaman təhsilə və əhalinin maariflənməsi məsələsinə xüsusi qayğı ilə yanaşmış, xalqın savadlanmasına çalışmış, elm və maarifin "yuxarıdan tutmuş aşağıya qədər, kasıbdan tutmuş əşrafa qədər, xalqın bütün təbəqələri arasında istisnasız olaraq yayılması"na cəhd göstərmiş Mirzə Fətəli Axundovun, 1920-21-ci illərdə savadsızlığın ləğv olunması üzrə ilk qadın kursları təşkil etmiş, bütün qəzada yeganə qadın müəllim kimi siyasi maarif işində fəal çalışmış Məryəm Bayraməlibəyovanın, Nəşri-maarif cəmiyyətinin, Bakı və onun kəndlərində açdığı ibtidai məktəblərin müəllim kadrları, dərslik və metodik vəsaitlərlə təmin olunması işinə rəhbərlik etmiş Əlisgəndər Cəfərzadənin və bir çoxlarının xüsusi zəhməti olmuşdur.

AXC-nin Azərbaycan tarixindəki rolunu ulu öndər Heydər Əliyev çox yüksək qiymətləndirmiş, "Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu" demişdir. Ümummili lider Heydər Əliyev 1998-ci il yanvarın 30-da "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında", ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev isə 2008-ci il fevralın 15-də "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışlar. 2018-ci il yanvarın 10-da isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi haqqında sərəncam imzalayan Prezident İlham Əliyev, ümumilikdə, 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etmişdir.

**M.Hüseynova**




# Yavər Talıb oğlu Camalov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Yavər Talıb oğlu Camalov 2018-ci il iyunun 23-də ömrünün 69-cu ilində vəfat etmişdir.

Yavər Camalov 1949-cu il oktyabr ayının 17-də Sabirabad rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1967–1972-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsində neft və qaz yataqlarının işlənməsi texnologiyası və kompleks mexanikləşdirilməsi ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1972-ci ildə "Siyəzənneft" Neft və Qaz Çıxarma İdarəsində operator kimi başlayan Yavər Camalov 1973–1995-ci illərdə "Şirvanneft" Neft və Qaz Çıxarma İdarəsində neft-qaz çıxarma üzrə mühəndis, böyük mühəndis, növbə rəisi, texnologiya üzrə rəis müavini və rəis vəzifələrində çalışmışdır. O, 1995–2003-cü illərdə ARDNŞ-nin "Quruda Neft və Qaz Çıxarma" İstehsalat Birliyinin, 2003–2006-cı illərdə isə "Azneft" İstehsalat Birliyinin baş direktoru olmuşdur. 2006-cı ildən ömrünün sonunadək Yavər Camalov Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsində işləmişdir.

Yavər Camalov tutduğu vəzifələrdən asılı olmayaraq, çalışdığı bütün sahələrdə daim işgüzarlıq, peşəkarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Yüksək tələbkarlığı, dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona böyük hörmət qazandırmışdır. O, uzun illər boyu Azərbaycanın neft sənayesinin inkişafı naminə bilik və bacarığını əsirgəmədən, var gücünü sərf edərək ölkə iqtisadiyyatının yüksəlişinə töhfələr vermişdir.

Azərbaycan Respublikasında müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin uğurla həyata keçirilməsində Yavər Camalovun özünəməxsus xidmətləri vardır. Onun bir nazir kimi rəhbərlik etdiyi dövr ərzində nazirliyin müəssisələrində çox sayda yeni istehsal sahələri yaradılmaqla yanaşı, qurumun müasir tələblərə uyğun səmərəli fəaliyyəti nəticəsində ölkədə hərbi təyinatlı məhsulların çeşidi artmış və keyfiyyəti yüksəlmiş, müdafiə sənayesinin idxaldan asılılığının aradan qaldırılması istiqamətində nailiyyətlər əldə olunmuş və ümumilikdə Azərbaycan Ordusunun müasir silah növləri ilə təmin edilməsi üçün zəruri addımlar atılmışdır.

Yavər Camalovun ölkənin iqtisadi inkişafındakı xidmətləri daim yüksək qiymətləndirilmişdir. O, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş və müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı və səmimi insan Yavər Camalovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev , Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Hacıbala Abutalıbov, Əli Əsədov, Akif Əlizadə, Zakir Həsənov, Ramil Usubov, Elçin Quliyev, Rövnəq Abdullayev, Xoşbəxt Yusifzadə, Yəhya Musayev, Tofiq Rəfiyev**

# Bakcell sosial mediada cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərdi




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə nüfuzlu beynəlxalq "Socially Devoted" sertifikatı ilə təltif olunub.

Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış "Socialbakers" şirkəti Azərbaycandakı şirkətlərin "Facebook" şəbəkəsində 2018-ci ilin I-ci rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Həmin monitorinqin nəticələrinə əsasən, Bakcell şirkəti 2018-ci ilin yanvar ayından mart ayına qədər olan müddət ərzində özünün rəsmi "Facebook" səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki 2017-ci ildə "Bakcell" dörd dəfə abunəçi sorğularının cavablandırılması üzrə "Socially Devoted" sertifikatına layiq görülüb. "Bakcell"-in "Facebook" səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.

Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı, yerli bazarın tələblərinə əsaslanır.

Bakcell abunəçiləri şirkətin həftənin 7 günü, günün 24 saatı ərzində abunəçilərə yüksək keyfiyyətli xidmət göstərən "555" Məlumat Mərkəzinə və ya sorğuların rekord həddə 100% cavablandırılmasını təmin edən "Facebook" səhifəsinə müraciət edə bilərlər.

# Elmlər Akademiyası yaxınlığında yeni Azercell Eksklüziv!

Abunəçilərinin rahatlığı və xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Azercell Telekompaytaxt və regionlarda eksklüziv mağazalarının fəaliyyətini genişləndirir. Bu dəfə şirkət Bakı şəhəri, Yasamal rayonu, S.Dadaşov küçəsi, Elmlər Akademiyası metro stansiyasının yaxınlığında açılan yeni konsepsiyalı ofisini abunəçilərin ixtiyarına verib.

Xatırladaq ki, ən müasir avadanlıqla təchiz olunan mağazanın xüsusi özəlliyi ofisdə açıq sahələrin mövcudluğu, servislərin və seçim imkanlarının rahatlığıdır. Belə ki, burada abunəçilər istədiyi məhsulu tədqiq və müqayisə edə, sınaqdan keçirə bilərlər. Düzgün seçim etməkdə, xidmətlərə qoşulmaqda və digər məsələlərdə isə müştərilərə peşəkar satış mütəxəssisləri dəstək olur. Bu mağazada da "izahlı qaimə" və "addan-ada" əməliyyatları istisna olmaqla, şirkətin müştəri xidmətləri mərkəzlərində təqdim olunan bütün əməliyyatlar da icra olunur. Burada abunəçilər mobil texnologiyaları dəstəkləyən əlavə cihazlar, müxtəlif aksessuarlar əldə edə, mobil telefonları



kredit və nağd şəkildə ala bilərlər. Mağaza həftənin bütün günləri fasiləsiz olaraq səhər saat 9:00-dan axşam 20:00-a qədər abunəçilərə yüksək keyfiyyətli xidmət göstərməyə hazırdır. Onu da qeyd edək ki, açılış günündən etibarən 3 gün ərzində Azercell Eksklüziv mağazasından alış-veriş edən müştərilər xərclədikləri məbləğin düz 50%-i dəyərində hədiyyə qazanmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, Azercell-in Eksklüziv mağazaları Bakı (Tbilisi prospekti 44C, Bülbül pr. 5, Qara Qarayev prospekti, ev 30\42, mənzil 52), Xırdalan (Heydər Əliyev pr. Mehdi Hüseyin küç. 54), Mərdəkan (Mərdəkan qəs., S.Yesenin küç., 92/2, m. 30), Xaçmaz (Nəriman Nərimanov küç., 40), Salyan şəhəri (Heydər Əliyev küç., 105), Quba (Heydər Əliyev prospekti 194 və Qələbə küçəsi 12) və Sumqayıtda (11-ci mk-rn, Koroğlu və Üzeyir Hacıbəyov küçələrinin kəsişməsi) abunəçilərin ixtiyarına verilib.

# ETİBARSIZDIR

Suraxanı rayonu, Əmircan qəsəbəsi, A.Rzayev küç. ev 104 ünvanında yaşayan Yusifova Nazənim Bünyət qızının adına verilmiş kupça itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**